**Bakı Xəbər.** - 2024. - 30 mart-1 aprel. - № 54. - S. 10.

# Ermənistanın azərbaycanlılara qarşı genosidi bir əsrdir davam edir...

*“Ermənilər XX əsrin əvvəllərində həyata keçirdikləri soyqırım cinayətlərini XX əsrin sonlarında Xocalıda və digər ərazilərimizdə təkrar ediblər”*

**İradə Sarıyeva**

**Tariximizdə qanla yazılan səhifələr çoxdur. Bu qanlı səhifələrin yaranmasına səbəb olan isə ərazimizdə yer verib yurd-yuva sahibi etdiyimiz ermənilər, tarixi torpaqlarımızda yaradılan Ermənistan adlandırılan terrorçu dövlətdir. Ermənistan, ermənilər son 100 ildə bir neçə dəfə Azərbaycan türklərini soyqırıma məruz qoyub.**

1918-ci ilin Mart soyqırımı dövründə və ondan keçən 106 il ərzində erməni daşnakları, qaniçənləri həm Azərbaycanın Güneyində, həm Quzeyində, həm də digər tarixi torpaqlarımızda azərbaycanlılara qarşı qanlı genosid həyata keçiriblər.

Mart Soyqırımı 1918-ci ilin 30 mart - 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdikləri qırğındır.

Rəsmi mənbələrə əsasən, soyqırımı nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilib, on minlərlə insan itkin düşüb.

Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.

Erməni daşnakları XX əsrin əvvəllərindən başlayaraq dəfələrlə soyumuzu qurutmağa çalışıb və uşaq demədən, qadın demədən, qoca demədən insanlarımızı kütləvi olaraq qətlə yetirib soyqırım cinayəti həyata keçiriblər.

Tarixçilər bildirir ki, Birinci Dünya Müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. “1918-ci ilin mart ayından etibarən “əksinqilabçı ünsürlərlə mübarizə” şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub. Minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə məhv edilib. Ermənilər evlərə od vurur, insanları diri-diri yandırırdılar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıdıb, Bakının böyük bir hissəsini xarabalığa çeviriblər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilib. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilib, kəndlər yandırılıb, milli mədəniyyət abidələri dağıdılıb məhv edilib. Faciənin günahsız qurbanları içərisində qadınlar və uşaqlar xüsusi ilə seçilir. Erməni vandalizminin bariz nümunəsi olaraq xüsusi amansızlıqla öldürülən azyaşlıları və silahsız qadınları göstərmək olar. Onların ağlasığmaz işgəncələrlə öldürülməsi faciənin ağırlığını bir daha sübut edir. Azərbaycanlılara qarşı aparılan soyqırımı siyasətinin xronologiyasını xatırlayarkən, xalqımıza münasibətdə törədilən vəhşilik və cinayətlərin miqyası və metodologiyası heyrət və qəzəb doğurmaya bilmir. 1918-ci ilin mart-aprelində Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda ermənilər 50 min azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz doğma yurd-yuvalarından didərgin salmışlar. Təkcə Bakıda 30 minə yaxın azərbaycanlı xüsusi qəddarlıqla öldürülmüşdür. Ermənilər Şamaxı qəzasında 1653-ü qadın və 965-i uşaq olmaqla ümumilikdə 7000-dən çox insanı soyqırıma məruz qoymuşdular. Şamaxıda 58, Quba ərazisində 122, Qarabağın Dağlıq hissəsində 150, Zəngəzurda 115, İrəvan Quberniyasında 211 kənd yerlə yeksan olunub...

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirib. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədi ilə fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Məlumatlarda deyilir ki, 1918-ci il 30 mart tarixində axşam saat 05:00-da Bakıda ilk atəş səsləri eşidildi. Əvvəlcədən planlaşdırılmış şəkildə təkcə erməni əsgərləri deyil, Bakıdakı ermənipərəstlər də bu savaşa qoşuldular. Yaxşı silahlanmış və hərbi hazırlıqlı erməni əsgərləri müsəlmanların evlərinə basqınlar edərək, onları öldürür, 3 – 4 günlük körpələri xəncərlə qətlə yetirir, uşaqları alovlar içinə atırdılar. Qadınlar daha ağır şəkildə öldürülürdülər. Arxiv materiallarına görə qulaqları, burunları kəsilən, orqanları parça-parça

edilən 57 qadının meyidi tapılmışdı.1918-ci ilin mart ayında Şamaxının 58 kəndi Bakı Sovetinə bağlı erməni ordusu tərəfindən dağıdıldı. Qoşunu ilə Şamaxıya gələn S.Lalayan ilk olaraq yaşlıların, qadın və uşaqların gizləndiyi məscidi mühasirəyə almağı, sonra isə yandırmağı əmr etdi. Tarixi sənədlərdə göstərilir: «Uşaq və qadınların böyük bir hissəsi məsciddə gizləndi. Tanınmış Axund Molla Səfərqulu öldürüldü. Hər kəs axunda bir şey edilməyəcəyini düşünürdü. Amma ermənilər məscidə girərək, axundu tapdılar. Onun gözlərini çıxarıb, dilini, burnunu və qulaqlarını kəsdilər məsciddəki bütün qadınlar öldürüldü”. Təqribən 8000-ə yaxın insan öldürüldü ki, bunun da 1653 nəfəri qadın, 965-i isə uşaq idi. Aprel ayında bu bölgənin 122 kəndi dağıdıldı, yüzlərlə müsəlman türk və ləzgi qətlə yetirildi. Heç təsadüfi deyil ki, 2007-ci il aprelin əvvəllərində Quba ərazisində kütləvi məzarlıqlar aşkar edilmişdir. Bütün bunlar bir daha azərbaycanlılara qarşı soyqırımı təsdiqləyir. İrəvan quberniyası ilə qonşu olan Azərbaycanın Zəngəzur mahalında 115 kənd dağıdılmış, 3257 nəfər kişi, 3276 nəfər qadın, 2196 uşaq qətlə yetirilib. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi”. Bunlar tarixi sənədlərdə vurğulanır.

1905-ci, 1918-ci illərdə daşnak, faşist babalarının etdikləri soyqırım cinayətlərini erməni terrorçuları, terror ölkəsi Ermənistan XX əsrin 1988-90-cı illərində yenidən təkrar ediblər, Qərbi Azərbaycanda, Qarabağda azərbaycanlıları genosidə məruz qoyublar. 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə Ermənistan silahlı birləşmələri və 366-cı motoatıcı alay tərəfindən məqsədyönlü şəkildə törədilən Xocalı soyqırımı tarixin yaddaşından heç zaman silinməz. Erməni quldurları, daşnakları həmçinin Meşəli, Kərkicahan, Ballıqaya, Ağdaban, Qaradağlı kimi faciələr də törədiblər.

Tarixə baxanda aydın görsənir ki, ötən yüz il müddətində ermənilərin şüurunda, niyyətində heç nə dəyişməyib, separatzim, soyqırım cinayətləri, kütləvi qətliamlar törətmək bunların milli xarakterinə çevrilib. Ermənistan ötən yüz ildə heç zaman daşnak liderlərinin yırtıcı keşmişindən imtina etməyib.

*“... yüz ildən çoxdur ki, uydurma "Böyük Ermənistan" xəstəliyinə tutulublar”*

AMEA-nın Qafqazşünaslıq İnstitutunun Qafqaz Tarixi şəbəsinin müdiri Qasım Hacıyev “Bakı-Xəbər”ə bildirdi ki, son yüz ildə erməni daşnakları xalqımıza qarşı bir neçə dəfə soyqırım aktları həyata keçirib. Professor təəssüf hissi ilə bildirdi ki, bu cinayətlərə görə nə ermənilər, nə də torpaqlarımızda qurulan Ermənistan dövlətinə qarşı beynəlxalq birlik tərəfindən heç bir addım atılmayıb.

Q.Hacıyev qeyd etdi ki, ermənilər bizim ərazilərimizə köçürüldükdən və Qərbi Azərbaycanda onlar üçün dövlət qurulandan sonra torpaqlarımıza qarşı iddialar irəli sürməyə başlayıblar, onların işğalçı, terrorçu davranışlarından isə yüzminlərlə azərbaycanlı əziyyət çəkib.

Q.Hacıyev bildirdi ki, 1828-ci illərdə imzalanan bədnam Türkmənçay müqaviləsindən sonra ərazilərimizə ermənilərin köçürülməsi nəticəsində saysız faciələrlə, insan itkisi ilə, deportasiya və soyqırımlarla üzləşdik. “Ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi prosesi həyata keçirildikdən sonra onlar öz havadarlarının dəstəyi ilə daha çox ərazilərimizi ələ keçirmək niyyətinə düşdülər. XX əsrin əvvəllərində xalıqımıza qarşı amansız soyqırımlar həyata keçirməyə başladılar”. Q.Hacıyev əlavə etdi ki, ermənilər məqsədli şəkildə İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırıldılar.

Q.Hacıyev qeyd etdi ki, bundan sonra da Qərbi Azərbaycandan azərbaycanlıların qovulması, məhv edilməsi siyasəti həyata keçirilməyə başladı. Professor Hacıyev dedi ki, bu qanlı cinayətlərin, soyqırım aktlarının törədilməsində əsas məqsəd o olub ki, ermənilər bizim torpaqlarda öz çirkin və mifik ideyalarını həyata keçirsinlər. “Ermənilər yüz ildən çoxdur ki, uydurma "Böyük Ermənistan" xəstəliyinə tutulublar. Bilirsiz ki, onlar saxta tarix düzəldiblər, ora mifik məsələlər daxil ediblər. Qeyri-saxlam düşüncənin məhsulu olan “Böyük Ermənistan” xülyasından bu gün də xilas ola bilməyiblər.

Bu xəstə, əsassız niyyətlərini gerçəkləşdirmək üçün məhz xalqımızı hədəf seçiblər.

Bilirsiz ki, bu xəstə ideyanı gerçəkləşdirmək üçün onlar nəinki Azərbaycanın, hətta bütün Qafqazın tarixini saxtalaşdırmaqdan çəkinməyiblər. Dediyim kimi, cild-cild kitablar yazıblar, saxta xəritələr çap ediblər”.

Q.Hacıyev bildirdi ki, "Böyük Ermənistan" yaratmaq xülyası onların gözünü elə tutub ki, daşnaklar 1905-1907-ci illərdə, 1918-ci ildə onlar azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçiriblər.

**1918-ci ilin mart qırğınlarını qeyd edən Q.Hacıyevin sözlərinə görə, Bakıda və Azərbaycanın bir sıra ərazilərində, yaşayış məskənlərində ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırım cinayətləri cild-cild kitablara sığmaz. Bu cinayətlərin erməni terrorçuları, daşnakları tərəfindən törədildiyini deyən Q.Hacıyev bildirdi ki, amma onların heç biri tarixdə öz cəzasını almayıb.**

**“Ermənilər XX əsrin əvvəllərində həyata keçirdikləri soyqırım cinayətlərini XX əsrin sonlarında Xocalıda və digər ərazilərimizdə təkrar ediblər. Son yüz ildə terror dövləti Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi soyqırımlara beynəlxalq ictimaiyyət səssiz qalmamalıdır. Xüsusən də erməniləri gecə-gündüz müdafiə edən dövlətlər bu gerçəyi qəbul etməlidirlər ki, Ermənistan son yüz ildə azərbaycanlılara qarşı bir neçə dəfə soyqırım və deportasiya siyasəti həyata keçirib”-deyə professor Hacıyev qeyd etdi.**